# Mübarizlik və tarixi qələbə

***Milli ordunun yaranması Azərbaycan Demokratik Cümhuriyyətinin qurulması ilə bağlıdır. 1917-ci ilin dekabrında general Əliağa Şıxlinskinin rəhbərliyi ilə Müsəlman korpusunun təşkilinə başlananda Azərbaycan hələ müstəqil dövlət deyildi. Bu korpus Cənubi Qafqazda legitim hakimiyyət funksiyasını öz üzərinə götürmüş Cənubi Qafqaz komissarlığının qərarı ilə təşkil edilirdi. Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə bu korpusun formalaşdırılması üçün müəyyən işlər görülmüşdü. Cümhuriyyət elan olunandan sonra Azərbaycan hökuməti bu korpusu öz nəzarəti altına götürdü, 1918-ci il iyun ayının 26-da onun bazasında Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Müstəqil Azərbaycan dövlətinin rəhbərləri ordu olmadan dövlətin müstəqilliyni qoruyub saxlamağın mümkünsüzlüyünü nəzərə almışdılar.***

Böyük tarixi şəxsiyyət Heydər Əliyev çıxışlarında Azərbaycan Xalq Cümhuriyyəti illərində milli ordu quruculuğu sahəsində görülən işlərə, əldə edilən nəticələrə yüksək qiymət verirdi. Əlahiddə Azərbaycan Korpusnun əsasının qoyulduğu günün - iyun ayının 26-nın Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü təyin edilməsi, Cümhuriyyət ordusu ilə müasir Azərbaycan Respublikasının ordusunun mahiyyətcə oxşarlığı yaradan və yaşadan amillər dövlətçiliyə sədaqətin göstəricisi idi. Bu sədaqət 1998-ci ilin 22 mayında fərmanla təsdiq edildi. Fərman həm də böyük tarixi şəxsiyyətin Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ordunun təşkil edilməsi üçün görülən işlərə verdiyi böyük dəyər idi.



Artilleriya generalları Səməd bəy Mehmandarovla Əliağa Şıxlinski Azərbaycanın müstəqilliyinə son dərəcə sədaqətli oldular. Onlarla bir sırada neçə-neçə general, yüzlərlə zabit də Cümhuriyyət ordusunun təşkilatlanmasında, ordunun yad qüvvələrə qarşı uğurlu mübarizə aparmasında böyük xidmətlər göstərdi. Cümhuriyyət ordusunun milli hərbi geyimi hazırlandı, orduda Azərbaycan türkcəsi tətbiq edildi, ordunun şəxsi heyəti arasında savadsızlığın ləğvi və Azərbaycanın qəhrəmanlıq tarixinin öyrənilməsi üçün konkret tədbirlər həyata keçirildi. Azərbaycan dilində yazılmış hərbi marşlar əsgərlərin mənəvi-psixoloji hazırlığında mühüm rol oynadı. Cümhuriyyət ilhaq ediləndən sonra da ordu da imperiya ordusunun tərkibinə daxil edildi.

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra gənc dövlətin ordusu yaradıldı. Ancaq dövlətin idarə edilməsində səriştəsizlik orduda vahid komandanlığın olmaması, yerli müdafiə batalyonlarına hərbi təhsili olmayanların rəhbərlik etməsi ordunun formalaşmasına, düşmənlə döyüş aparmasına imkan vermirdi.

Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev ordu quruculuğunda da əsaslı islahatların aparılmasını təmin etdi. Yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq yaradıldı.

1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki bazası genişləndirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı. Ordunun peşəkar zabit kadrları ilə komplektləşdirilməsi üçün hərbi təhsil sistemində də əsaslı islahatlar həyata keçirildi.



Ulu Öndər demişdir: "Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik... Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir". Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı. Azərbaycanda hərbi sənaye kompleksi də yaradılıb və mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Belə nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah-sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaratdı.

Odrumuz 2016-cı ilin aprelində Lələtəpədə, 2018-ci ilin mayında Günnütdə, 2020-ci ilin uyununda Tovuzda mühüm qələbələr qazandı. 2020-ci il noyabrın 8-də İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazanıldı. 2023-cü ilin 20 sentyabrında Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildi…

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Vətən müharibəsində qələbə münasibətilə medal və ordenlərin təsis olunması qələbənin əbədiləşdirməsi və iştirakçılara ayrılan ali diqqətin təcəssümüdür. "Zəfər" və "Qarabağ" ordenləri, həmçinin 15 yeni medal - "Vətən Müharibəsi Qəhrəmanı", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" təsis olundu. Bakıda Qənimətlər Parkı, Zəfər Muzeyi yaradıldı…

Tarixi Zəfərədən sonra Azərbaycanda ordu quruculuğunun yeni mərhələsi başladı. Zabit kadrları Türkiyə modeli əsasında hazırlamaq üçün Milli Müdafiə Universiteti yaradıldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dedi: "Biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir". Bu gün Azərbaycan Ordusu regionun ən güclü ordusudur.

**Səbinə XASAYEVA,**
**Milli Məclisin deputatı.**

Respublika.- 2025.- 26 iyun (№ 130).- S.5.